*Bu 44 günün hər günü bizim şanlı tariximizdir, hər gün Azərbaycan irəli gedirdi. Bu 44 gün ərzində bir gün də olmamışdır ki, biz geri çəkiləк. Biz Ermənistanın 30 ilə yaxın müddət ərzində qurduğu istehkamları yararaq keçmişik. Bu istehkamlar elə qurulmuşdu ki, Azərbaycan oradan keçə bilməsin, əsgərimiz oradan keçə bilməsin. Eyni zamanda, Dağlıq Qarabağ ərazisinin coğrafi relyefi də Ermənistan tərəfi üçün daha əlverişli idi. Azərbaycan əsgər və zabitləri böyük qəhrəmanlıq, şücaət göstərərək şərəfli missiyanı yerinə yetirdi və öz doğma torpaqlarını işğalçılardan azad etdi.*

*İlham ƏLİYEV*
*Azərbaycan Respublikasının Prezidenti*



***Cəbhədəki Qələbəmiz regionun ən güclü dövlətlərindən birinin– Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin də imza atdığı Üçtərəfli Bəyanatla rəsmiləşdirildisə, bərpadakı qələbəmiz regionun daha bir qüdrətli dövlətinin – Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın da imzaladığı Şuşa Bəyannaməsi ilə tarixə yazıldı. Qələbədən – qələbəyə gedən yolumuzun müəllifi və memarı isə regionun sürətlə inkişaf edən gənc müstəqil dövlətinin – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oldu.***

# Cəbhədəki Qələbədən bərpadakı zəfərə doğru

Bakı – Moskva – Ankara üçbucağının sıx və səmərəli əməkdaşlığının, qarşılıqlı inam və etimadın nəticəsində yaranmış yeni reallıqlar təkcə bu ölkələrin maraqlarını təmin etmədi. Türkiyəli ekspert Sərkan Ünalın yazdığı kimi, 44 günlük müharibədən sonra yaranmış reallıqlar otuza qədər ölkənin maraqlarına cavab verir: “ Ən başlıcası, Azərbaycanın ərazi bütövlüyü bərpa edildi. Zəngəzur dəhlizinin gündəliyə gətirilməsi Türk dünyasının iqtisadi əməkdaşlığının genişləndirilməsinə zəmin yaratdı. Minsk qrupunun 30 ilə reallaşdıra bilmədiklərini Azərbaycanın 44 gündə gerçəkləşdirməsinə dəstək verdiyinə görə Rusiyanın dünyadakı nüfuzu artdı. “Ölüm ayağında” olan Ermənistan iqtisadiyyatının dirçəldilməsi üçün İrəvanın yeni addımlar atmaq variantları ərsəyə gəldi”.

Cəbhədəki qələbə ölkəmizin ərazi bütövlüyünün bərpası ilə nəticələndi, Azərbaycan Ordusunun qüdrətini göstərdi, apardığımız döyüş əməliyyatları dünya hərb tarixinə misli görünməmiş rekordlar kimi yazıldı. Bu qələbə bizim dost və tərəfdarlarımızın sayını görünməmiş bir şəkildə artırdı. Zəfər yüz minlərlə minanın səpildiyi əraziləri təmizləyərək, səkkiz aya ən müasir beynəlxalq hava limanının tikilməsinə nail olan dövlətin iqtisadi qüdrətini göstərdi. İndi artıq işğaldan azad edilmiş ərazilərimizin bərpasında iştirak etmək istəyən ölkə və şirkətlər o qədər artmışdır ki, sayını dəqiq bilmirik.

Cəbhədəki qələbə bizə nələri verdi? Bu sualın cavabını artıq heç bir rəsmi mənbəyə baxmadan da deyə bilərik. Çünki uzaq tarix deyil və həmin günlərin ən kiçik detallarını belə şagirdlərimiz də bilirlər. Sonradan Vətən müharibəsi adlandırdığımız İkinci Qarabağ müharibəsi və ya “Dəmir yumruq” əməliyyatı beynəlxalq səviyyədə Azərbaycanın bir hissəsi kimi tanınan, lakin Ermənistan hökümətinin idarəetməsi altında yaradılan qondarma “Dağlıq Qarabağ Respublikası” ilə bağlı həll edilməmiş münaqişənin son gərginləşməsi və birdəfəlik həll edilməsi oldu.

Müharibə, pilotsuz təyyarələrin, sensorların, ağır artilleriyanın və raket zərbələrinin istifadəsi, habelə dövlət təbliğatının və onlayn informasiya müharibəsində rəsmi sosial media hesablarının istifadəsi ilə yadda qalan oldu. Şuşanın azad edilməsindən sonra İlham Əliyev, Vladimir Putin və Nikol Paşinyan arasında 10 noyabr 2020-ci il, saat 00:00-dan etibarən bütün döyüş əməliyyatlarını dayandıran atəşkəs bəyanatı imzalandı. Bəyanata əsasən, Azərbaycan müharibə zamanı işğaldan azad etdiyi ərazilərə nəzarəti əlində saxladı. Ermənistan isə işğal altında olan digər ətraf əraziləri Azərbaycana qaytardı. Azərbaycan, həmçinin Türkiyə və İranla həmsərhəd olan Naxçıvana dəhliz əldə etdi.

Bəs bərpadakı qələbəyə nail olmaq üçün nələri edirik? Əvvəla, onu deyək ki, dövlət başçımızın müvafiq sərəncamı ilə Qarabağ iqtisadi rayonunun yaradılması qədim tarixi və mədəni irsə malik olan bu regionun bərpa edilməsi və sürətli inkişafı üçün olduqca mühüm addım idi. Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan inzibati rayonlar da tarixən eyni coğrafi ərazidə yerləşmiş, sosial-iqtisadi, tarixi və mədəni bağlara malik olmuşdur. Ona görə də onların vahid iqtisadi rayon daxilində birləşdirilməsinə ehtiyac var idi və Prezident İlham Əliyev həmin ehtiyacı reallaşdırdı.

Fikrimizcə, bu addımlar 44 günlük müharibədən sonra azad edilmiş ərazilərin bərpasına və inkişafına lazımi təkanı verəcək. Xatırladaq ki, işğal səbəbi ilə, Qarabağda 7 min müəssisə bağlanmışdı. Həmin müəssisələr Azərbaycanın taxıl istehsalının 24 faizini, spirtli içki istehsalının 41 faizini, kartof istehsalının 46 faizini, ət istehsalının 18 faizini, süd istehsalının 34 faizini təmin edirdi. Bu istehsal imkanlarının bərpası, müxtəlif iqtisadi sektorların, xüsusilə də kənd təsərrüfatının inkişafına əhəmiyyətli dərəcədə təsir edəcəkdir. İlkin hesablamalara görə, yeni yaradılan Şərqi Zəngəzur iqtisadi rayonu yaxın illərdə Azərbaycan iqtisadiyyatının, təxminən 4 faizini formalaşdıracaqdır.

Mütəxəssislər yazırlar ki, azad edilmiş ərazilər həm də böyük bərpa olunan, xüsusən də hidroenerji potensialına malikdir. Belə ki, Azərbaycanın yerli su ehtiyatlarının 25 faizi Qarabağda əmələ gəlir ki, bu da su elektrik stansiyalarının yaradılması üçün imkanlar açır. 44 günlük müharibə dövründə Azərbaycan erməni işğalçıları tərəfindən dağıdılmış 30 SES-ə nəzarəti ələ keçirdi. Bu elektrik stansiyalarının bir çoxu bərpa olunub, digərlərində isə bərpa işləri davam etdirilir. Qarabağda, eyni zamanda, kifayət qədər Günəş və külək enerjisi potensialı var. Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin ilkin hesablamalarına görə, azad edilmiş ərazilər 4 min meqavatdan çox Günəş enerjisi və 5 yüz meqavata qədər külək enerjisi potensialına malikdir.

Təbii ki, azad edilmiş ərazilərin iqtisadi potensialının reallaşması üçün dayanıqlı nəqliyyat infrastrukturunun olması da vacibdir. Buna görə də azad edilmiş ərazilərin bərpası proqramının əsas istiqamətlərindən biri hərtərəfli nəqliyyat infrastrukturunun yaradılmasıdır. Qarabağda ilk hava limanı olan Füzuli Beynəlxalq Hava Limanı istifadəyə verilib. Zəngilan və Laçın rayonlarında isə beynəlxalq hava limanlarının təməli qoyulub. Hava limanları ilə yanaşı, azad edilmiş ərazilərdə yerli avtomobil və dəmir yolları şəbəkəsinin bərpası və genişləndirilməsi işləri də davam etdirilir və bəzi magistral yollar istifadəyə verilmişdir. Bu yollar Qarabağa şimal, şərq və cənub istiqamətlərindən girişi təmin edəcək və onu regionun nəqliyyat qovşağına çevirəcəkdir.

Ekspertlər yazırlar ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadi inkişafı və onların beynəlxalq Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinə, eləcə də Zəngəzur dəhlizinə çıxışının olması Qarabağı bütün Cənubi Qafqazın iqtisadi mərkəzlərindən birinə çevirəcəkdir. Nəticədə Qarabağ erməni işğalı dövründə olduğu kimi, münaqişə bölgəsinə deyil, regional əməkdaşlığın simvoluna çevriləcəkdir.

Bu isə o deməkdir ki, biz bərpadakı qələbənin də reallaşdırılmasının astanasındayıq. Bu işdə Türkiyə Cümhuriyyəti başda olmaqla, çoxsaylı dost və tərəfdaşlarımızın köməyindən də istifadə etdiyimizə görə ərazilərin tam bərpasının uzaqda olmadığını deyə bilərik.

***İttifaq MİRZƏBƏYLİ,***
***“Xalq qəzeti”***